

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

3 noyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 43 (3606)


## Rəsmi xronika

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 28-də Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Prezident zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı oktyabrın 29-da Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Prezident zati-aliləri cənab Abdelmacid Tebbuna təbrik məktubu ünvanlayıb.***

***Ölkəmizin rəhbəri oktyabrın 30-da Seul şəhərində yaranmış izdiham nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Koreya Respublikasının Prezidenti Yun Sok Yola başsağlığı teleqramı göndərib.***

## Azərbaycan Prezidenti İlham Əliyevin Əlcəzairə səfəri

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə bu ölkəyə səfərə gedib.

Həmin gün Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində Fəxri qonaq statusunda iştirak edib.

Əlcəzair Prezidenti Abdelmacid Tebbun Prezident İlham Əliyevi, Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıb.

Dövlətimizin başçısı Zirvə toplantısında çıxış edib.

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri başa çatıb.

# SOÇİ GÖRÜŞÜ DİPLOMATİYAMIZIN NÖVBƏTİ UĞURUDUR



Oktyabrın 31-də Soçidə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü Avropada, eləcə də okeanın o tayında maraqla izlənilirdi. Siyasi şərhçilər bunu Azərbaycanın növbəti siyasi-diplomatik uğuru kimi qiymətləndirərək ölkəmizin diktə edən tərəf kimi öz mövqeyini gücləndirdiyini ifadə etdilər.

Budəfəki üçtərəfli görüşdə imzalanan bəyanat isə dövlət başçımızın Vətən müharibəsindən sonra yaranan reallıqlara uyğun olaraq ölkəmizin milli mənafelərinin reallaşmasını bütün siyasi müstəvilərdə və müzakirələrdə təmin etdiyini bir daha göstərdi.

Vətən müharibəsindən sonra, daha dəqiq desək, 2021-ci ildən başlayaraq, həm Rusiya Prezidentinin vasitəçiliyi, həm də Brüssel formatında bir neçə dəfə keçirilən üçtərəfli görüşlərdə müzakirələrin əsas mövzuları Ermənistanın öz öhdəliklərini yerinə yetirməsi, sərhədlərin delimitasiyası, münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması olub. Düzdür, görüşdə əldə olunan razılaşmaların realizə olunması ilə bağlı Ermənistanın ənənəvi qeyri-konstruktivliyi səbəbindən irəliləyiş olmasa da, Azərbaycan öz qətiyyəti ilə İrəvanı öhdəliklərini yerinə yetirməyə çağırıb.

Belə ki, oktyabr ayında Praqada keçirilən görüşdə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ölkəmizin Vətən müharibəsindən sonra mühüm siyasi qələbəsi kimi tarixə düşdü. Praqa formatında əldə olunan razılaşmalar, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasına dair təşəbbüslər Soçi görüşündə də təsdiq olundu.

Sənədə əsasən, tərəflər güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəliblər.

Beləliklə, Brüssel formatında olduğu kimi, Soçi görüşündə də Azərbaycanın təklifləri və təşəbbüsləri prioritetdir.

Soçidə də müzakirələr Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılmasından və sülh müqaviləsinin hazırlanması ilə bağlı müzakirələrdə əsas kimi götürülən 5 prinsipdən gedir. Bu Bəyanatda da Qarabağın adı çəkilmir, hansısa status məsələsindən söhbət getmir.

## VƏTƏNDAŞ QƏBULU

Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan



***Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il noyabr ayının 24-də Sumqayıt Şəhər Polis İdarəsinin inzibati binasında Sumqayıt, Abşeron, Qobustan, Qubadlı və Zəngilan şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 23.11.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

Prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Abşeron rayonu ərazisində qeyri-aşkar şəraitdə törədilmiş xüsusilə ağır cinayətin "isti izlərlə" açılması təmin edilib.

Belə ki, oktyabrın 31-i gecə saat 05 radələrində Masazır qəsəbəsində yerləşən otellərin birində 1990-cı il təvəllüdlü Turanə Cavadovanın üzərində xəsarət izləri olan meyitinin aşkar edilməsi faktı ilə bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə 1996-cı il təvəllüdlü Rəsul Niftəliyevin tamah niyyəti ilə zərərçəkmişi boğub öldürərək sonuncunun üzərində olan 150 manat pulu götürməklə hadisə yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

Rəsul Niftəliyev şübhəli şəxs qismində polis əməkdaşları tərəfindən tutularaq istintaqa təhvil verilib.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

## 29 İLDƏN SONRA...
### Əvvəlki illərdə bağlı qalmış cinayətin üstü açılıb

Birgə həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 29 il əvvəl törədilərək bağlı qalmış xüsusilə ağır cinayətin açılması təmin olunmuşdur.

Belə ki, 26 noyabr 1993-cü il tarixdə Fikrət İbrahimovun yaşadığı mənzilində odlu silahdan açılmış atəş nəticəsində güllə xəsarətləri ilə meyitinin aşkar edilməsi faktı üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb istintaq aparılsa da, cinayəti törətmiş şəxsi müəyyən etmək mümkün olmadığından iş üzrə icraat dayandırılmışdır.

Nərimanov rayon prokurorluğu tərəfindən cinayət işi yenidən öyrənildikdən sonra iş üzrə icraat təzələnmişdir.

Prokurorluq və polis orqanları tərəfindən həyata keçirilmiş çoxsaylı intensiv istintaq-əməliyyat tədbirləri nəticəsində əldə edilmiş sübutlarla müəyyən edilmişdir ki, 26 noyabr 1993-cü il tarixdə zərərçəkmişin iş yoldaşı olmuş Nazim Bayramov aralarında yaranmış narazılığa görə Fikrət İbrahimovun evinə gedib onunla mübahisə edərkən zərərçəkmişin tapançasını əlindən alıb Fikrət İbrahimovun baş nahiyəsinə atəş açmaqla hadisə yerindən uzaqlaşmışdır .

28 oktyabr 2022-ci il tarixdə Nazim Bayramova 01.09.2000-ci il tarixədək qüvvədə olmuş Cinayət Məcəlləsinin 94-cü maddəsinin 2-ci bəndi (ağırlaşdırıcı hallarda qəsdən adamöldürmə) və hazırda qüvvədə olan CM-in 228.1-ci (qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddələri ilə ittiham elan edilmişdir.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.



# Onlar sabahımızdır...

**Polis Akademiyasının təşkilatçılığı ilə İsmayıllıda məktəblilərlə görüş təşkil edilib.**

Rayonun 7 tam orta məktəbində təhsil alan yuxarı sinif şagirdlərinin iştirakı ilə keçirilən tədbirdə ali təhsil müəssisələrinə hazırlaşan, daxili işlər orqanlarında xidmət etmək həvəsində olan abituriyentlərə Polis Akademiyasına kursant qəbulu qaydaları ilə bağlı ətraflı məlumat verilib. Ölkəmizdə savadlı kadrların yetişməsində, daxili işlər orqanlarının hüquqşünaslarla təmin olunmasında akademiyanın mühüm rol oynadığı diqqətə çatdırılıb.

Sonda məktəblilərə bukletlər paylanılıb və Polis Akademiyasındakı müasir tədris prosesinə,



kursantların hazırlığına həsr edilmiş videoçarx nümayiş olunub.

**Analoji görüş Sabirabad rayonunda yerləşən Heydər Əliyev mərkəzində də 10 məktəbin şagirdlərinin iştirakı ilə baş tutub.**

Görüşdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Namiq Camalov,** Polis Akademiyasının əməkdaşı, polis baş leytenantı İsmayıl Əmirli, eləcə də digər iştirakçılar gələcəkdə polis olmaq istəyənlərə daxili işlər orqanlarında xidmətin üstünlükləri, polisin şərəfli mübarizə yolu, tarixi və Akademiyaya qəbul qaydaları ilə bağlı ətraflı məlumat veriblər.

Hər iki tədbirdə bəşəriyyəti narahat edən və mənəvi dəyərlərə böyük zərbə vuran narkomaniya haqqında da söhbət açılıb.

Çıxış edənlər narkomaniyaya qarşı mübarizənin gücləndirilməsindən, zərərli vərdişlərə düçar olmuş şəxslərin sağlam həyata qaytarılmasından və narkomaniyaya qarşı mübarizədə cəmiyyətin hər bir üzvünün fəal mövqe tutmasının zəruriliyindən danışıblar.

*"Polis"*

# Yeni bina, yeni töhfə




Noyabrın 2-də Balakən Rayon Polis Şöbəsinin yeni yaradılmış Qabaqçöl Polis Bölməsinin inzibati binasının açılışı olub.

Açılış mərasimində rayon İcra Hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, ictimaiyyət nümayəndələri, eləcə də yerli sakinlər iştirak ediblər.

Məlumat verilib ki, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun müvafiq əmri ilə yaradılan Qabaqçöl Polis Bölməsinin inşasına bu ilin fevralında başlanılıb. İki mərtəbədən ibarət olan inzibati bina DİN-in Maddi-Texniki Təminat Baş İdarəsi tərəfindən müasir standartlara uyğun tikilərək bütün xidməti otaqları zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz olunub. Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev mərasimdə çıxış edərək yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə bölmənin şəxsi heyətini təbrik edib, rayon ərazisində ictimai asayişin qorunmasında və cinayətkarlıqla mübarizədə onlara uğurlar arzulayıb.

Bölmənin inzibati binasının Zəfər Günü ərəfəsində istifadəyə verilməsindən məmnunluğunu bildirən Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Çingiz Aslanov Daxili İşlər Nazirliyinin rəhbərliyini əmin edib ki, şəxsi heyət bu diqqət və qayğıya layiqli xidməti ilə cavab verəcək, inamı və etimadı doğruldacaq.

*Mahir Məsimov,*
*polis kapitanı*

# Uşaqlarla bağlı regional konfrans



**Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Çətin həyat şəraitində olan uşaqların müdafiəsi və yerli mexanizmlərin təkmilləşdirilməsi" mövzusunda regional konfrans keçirilib.**

Konfransda iştirak edən DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsinin rəisi, polis polkovniki Hikmət Quliyev çıxışında uşaq hüquqlarının müdafiəsinin, onların hərtərəfli qayğı ilə əhatə olunmasının, zorakılığa şərait yaradan halların aradan qaldırılmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu qeyd edərək qanunvericilikdə nəzərdə tutulmuş qaydada kompleks tədbirlərin həyata keçirildiyini bildirib. O, uşaq və gənclərin radikal dini təsirlərdən qorunması, zorakılığa və qeyri-insani rəftara məruz qalması, qanunsuz fəaliyyət göstərən icmalara cəlb edilməsinin qarşısının alınması, eləcə də internet təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirlərin daim nəzarətdə saxlandığını diqqətə çatdırıb.

Konfransda tədris müəssisələrində pedaqoji kollektivlə, şagird və valideynlərlə həyata keçiriləcək profilaktik və təşkilati işləri əhatə edən birgə kompleks tədbirlər planının hazırlanması, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan kontingentin saxlanılması üçün Bakı şəhərində və regionlarda açıq və qapalı tipli təlim tərbiyə müəssisələrinin yaradılması məsələsinə baxılması, qarşılıqlı fəaliyyətin təşkili, müvafiq məlumatların aidiyyəti üzrə çatdırılması və çevik adekvat tədbirlərin görülməsi məqsədilə nazirliklər üzrə məsul əlaqələndirici şəxslərin müəyyən edilməsi təklif olunub.

*N.Cavadov*

# HƏMKARIMIZ BEYNƏLXALQ TƏDBİRDƏ İŞTİRAK EDİB





2022-ci ilin 17-21 oktyabr tarixlərində Vyanada BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına Tərəf-Dövlətlərin 11-ci Konfransı keçirilmişdir. Təşkilata üzv-dövlətlərin, hökumətlərarası təşkilatların, habelə müxtəlif milli və beynəlxalq qeyri-hökumət təşkilatlarının təmsil olunduğu tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğunun, Xarici İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Gömrük Komitəsinin, habelə Azərbaycan Respublikasının BMT-nin Vyanadakı bölməsində Daimi Nümayəndəliyinin əməkdaşlarından ibarət nümayəndə heyətinin tərkibində **Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəis müavini, ölkəmizin Konvensiya üzrə əlaqələndiricisi, polis polkovnik-leytenantı Elnur Aslanov** da iştirak etmişdir.

Transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürləri ilə mübarizə sahəsində universal və regional əməkdaşlığın ayrı-ayrı aspektlərinin və yeni tendensiyalarının, çoxtərəfli münasibətlərdə vətəndaş cəmiyyətinin rolu və milli mexanizmlərinin nəzərdən keçirildiyi Konfransda gündəlikdəki mövzular üzrə təqdimatlar dinlənilmişdir.

Polis polkovnik-leytenantı E.Aslanov gündəlikdə duran dörd məsələ (Konvensiyanı tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokol" və "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı Protokol"un dövlətdaxili qanunvericiliyi implementasiyası; transmilli mütəşəkkil cinayətkarlığın yeni forma və istiqamətləri də daxil olmaqla Konvensiyada təsbit olunan digər növ ağır cinayətlərlə mübarizədə Azərbaycan Respublikasının rolu və beynəlxalq əməkdaşlıq; ekstradisiya, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və müsadirə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsində ölkəmizin rolu) ətrafında çıxış etmiş, ölkəmizdə bu istiqamətlərdə həyata keçirilən fəaliyyətlə bağlı sualları cavablandırmışdır.

# Gənclər gələcəyə hazırlanır





***Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə gənclər arasında idmanın kross - gimnastika növləri üzrə respublika yarışlarının rayonlar üzrə mərhələsi davam etdirilir.***

"Sağlam bədəndə sağlam ruh" devizi altında növbəti yarışlar Biləsuvar və Neftçala rayonlarında baş tutub.

Tədbirlərdə Rayon İcra hakimiyyətlərinin rəhbərliyi, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin, Rayon Polis şöbələrinin, Şəhər Gənclər və İdman İdarəsinin əməkdaşları, idman ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Açılış mərasimlərində Dövlət Himni səsləndirilib və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edənlər ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. Qeyd edilib ki, yarışlar gənclər arasında sağlam həyat tərzinin və idmanın təbliği, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi məqsədilə keçirilir.

Daha sonra yarışlara start verilib və gənclər yarışların proqramında müəyyən olunan marşrut üzrə kross qaçışı, maneələri dəf etməklə qaçış estafet və gimnastik hərəkətlər üzrə yarışıblar.

Fərqlənən idmançılar müvafiq diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*"Polis"*

# ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİRLƏR KEÇİRİLİB

**27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatlara layiqli cavab vermək, işğal altında olan torpaqlarımızı düşməndən azad etmək üçün Ali Baş Komandan İlham Əliyevin əmri ilə bütün cəbhə boyu əks-hücum əməliyyatına başladıq. Cəmi 44 gündə darmadağın olan düşmən ordusu kapitulyasiya aktını imzalamağa məcbur oldu.**

Vətən müharibəsində DİN Daxili Qoşunlarının da 66 hərbi qulluqçusu şəhid oldu, 346 nəfər yaralandı.

Noyabrın 2-də DİN Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən 16075 saylı hərbi hissəsində 8 noyabr - Zəfər Gününün 2-ci ildönümünə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə DİN Baş Cinayət-Axtarış İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyev, eləcə də ŞPİ-nin əməkdaşları, hərbi hissə komandiri, polkovnik Rəşadət Süleymanov, şəhidlərin ailə üzvləri, qazilər, həmçinin veteran hərbçilər iştirak ediblər.







Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizə ehtiram olaraq yaradılmış abidə kompleksi önünə əklil qoyulub, əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Himni səsləndikdən sonra tədbiri açıq elan edən hərbi hissə komandiri, polkovnik R.Süleymanov 44 gün sürən hərbi əməliyyatlar nəticəsində ümumilikdə 300-dən çox yaşayış məntəqəsinin o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərin işğaldan azad edildiyini bildirib. O, həmçinin, döyüş tapşırıqlarını icra edərkən komandiri olduğu hərbi hissənin 54 nəfərdən ibarət şəxsi heyətinin 6 hərbi qulluqçusunun şəhid olduğunu, 30 nəfərin isə yaralandığını qeyd edib.

Tarixi ədalətin bərpa olunması uğrunda gedən döyüşlərdə Daxili Qoşunların hərbi qulluqçularının gələcək nəsillərə örnək igidlik və rəşadət nümunələri göstərdiyini deyən ŞPİ-nin rəisi, polis polkovniki F.Azadəliyev II Qarabağ savaşında Qoşunların 4 hərbi qulluqçusunun "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, 985 nəfərin isə müxtəlif orden və medallarla təltif edildiyini diqqətə çatdırıb. İdarə rəisi müharibədən sonrakı dövrdə də şəhidlərimizin xatirəsinin daim ehtiramla yad olunduğunu, ailə üzvlərinə DİN rəhbərliyi tərəfindən diqqət və qayğı göstərildiyini xüsusi vurğulayıb.

Tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edən DİN BCAİ-nin rəisi, polis general-mayoru A.Daşdəmirov Azərbaycan xalqının Ali Baş Komandanın ətrafında sıx birləşərək cəmi 44 gün ərzində "Dəmir yumruq"la düşmənin başını əzdiyini, ona tarixi bir dərs verdiyini, döyüşlərdə Azərbaycan əsgərinin əsl qəhrəmanlıq, fədakarlıq və vətənpərvərlik nümunələri göstərdiyini və tarixə qızıl hərflərlə yazılan bu qəhrəmanlığın xalqımız tərəfindən daima xatırlanacağını bildirib.

Mərasimdə şəhid ailələrinin üzvləri, qazilər, veteran hərbçilər və digər qonaqlar da çıxış ediblər.

Sonra şəhid ailələrinə plaketlər, qazilərə "Fəxri fərmanlar" təqdim olunub.

Mərasim şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatıb.

Paytaxtın 67987 saylı hərbi hissəsində də Zəfər coşqusu ilə keçirilən tədbirdə iştirak edən müharibə veteranları, qazilər, şəhid ailələrinin üzvləri Prezident İlham Əliyevin rəhbərliyi və komandanlığı ilə ölkəmizin daha böyük uğurlara imza atacağına, qarşıda duran hədəflərə çatacağına inamlarını ifadə ediblər.

*Teymur Əlizadə, polis mayoru*

# Ekstrasens-psixoloq saxlanılıb




Suraxanı rayon Əmircan qəsəbə sakini Maisə Beşirlinin etibarından sui-istifadə etməklə ona maddi ziyan vuran Rita adlı qadın Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırma zamanı məlum olub ki, zərərçəkmiş sosial şəbəkələrdən tanıdığı, özünü ekstrasens-psixoloq kimi qələmə verən Ritayla pul müqabilində ona psixoloji dəstək göstərməsi barədə danışıqlar aparıb. Göstəriləcək xidmətə görə verməli olduğu 2500 manatı əvvəlcədən razılaşdıqları formada sözügedən ekstrasens-psixoloqun bank kartına hissə-hissə onlayn qaydada ödəyib. Həmin xanım isə öz növbəsində M.Beşirliyə guya müalicə olunmaq məqsədilə nəzərdə tutulan dərmanları kuryer vasitəsilə çatdırıb, eyni zamanda paralel olaraq psixoloji seanslar keçib. Bir müddət sonra qəbul etdiyi dərmanların ona təsir göstərmədiyini və aldadıldığını başa düşən "pasient" ondan pulunu geri istəyib, lakin müsbət nəticə əldə edə bilmədiyi üçün polisə müraciət edib.

Şöbədən verilən məlumata görə, Abşeron RPİ-nin Təhqiqat Şöbəsi tərəfindən saxlanılan şəxsə qanunvericiliyin tələbləri izah edilməklə profilaktiki söhbət aparılıb. O, törətdiyi əməldən peşmançılıq hissi keçirdiyini etiraf edib. M.Beşirliyə dəymiş maddi ziyan tam ödətdirilərək vətəndaş məmnunluğu təmin olunub.

Söhbət əsnasında, digər bir vacib məqama diqqət çəkən Təhqiqat Şöbəsinin əməkdaşları texnologiyanın inkişafı ilə əlaqədar son zamanlar dələduzluq hallarının yeni forma və məzmun aldığını, sosial medianın yaratdığı imkanları fürsət bilən dələduzların feyk profillərlə vətəndaşların etibarından, inamından sui-istifadə edərək pulları mənimsədiklərini bildiriblər.

*Teymur Əlizadə*

# Yeniyetmələr maarifləndirilir

## Sabunçu RPİ-nin əməkdaşları daha bir tədbir keçirib

**Sabunçu RPİ Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin əməkdaşları narkomaniya ilə mübarizə məqsədilə rayon ərazisində gənclərlə görüşüblər.**

İdarəninin İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis kapitanı Ata Atayev qəzetimizə bildirib ki, maarifləndirici aksiya çərçivəsində parklarda, məktəblərin ətrafında, həyətlərdə sakinlərlə, xüsusən, yeniyetmələrlə maarifləndirici söhbət aparılıb.





Narkotik maddələrin insan orqanizmində və cəmiyyətdə yaratdığı fəsadlardan bəhs edən həmkarlarımız gənclərə diqqətlərini sağlam həyata, təhsilə yönəltmələrinin vacibliyini vurğulayıb, hüquqazidd əməllərdən çəkinməyi tövsiyə ediblər. Yeniyetmələri maraqlandıran suallar cavablandırılıb.

Maarifləndirici aksiyanın gənclərin qorunmasında əhəmiyyətli rol oynadığını deyən bölmə rəisi rayon ərazisində aksiyanın genişləndirilərək davam etdiriləcəyini qeyd edib.

*Rəşad Mehtiyev, polis baş serjantı*

# Müraciət etdi, məmnun qaldı

Xidməti fəaliyyətinin qayəsini vətəndaş məmnunluğu təşkil edən polisin cəmiyyətdəki nüfuzu həm də ona görə yüksəkdir ki, o özü də vətəndaş olaraq problemlərin tezliklə aradan qaldırılmasında üzərinə düşən öhdəliyi vicdanla yerinə yetirir. Məhz bu səbəbdəndir ki, vətəndaşlar polis əməkdaşlarının zəhmətini təqdir edir, Daxili İşlər Nazirliyinin rəhbərliyinə və şəxsi heyətinə təşəkkür məktubları ünvanlayaraq sevgi və sayğılarını ifadə edirlər.



Bu günlərdə Sabunçu rayon Bakıxanov qəsəbə sakini Natəvan Əhmədova DİN-ə ünvanladığı məktubunda yaşadığı ərazidə daha bir neçə piyada zolaqlarının salınmasında polisin onlara göstərdiyi köməkliyindən yazır.

Məktubla bağlı təfərrüatlara isə Sabunçu RPİ DYPŞ-nin rəisi, polis polkovnik-leytenantı Hafiz Məmmədov aydınlıq gətirdi. Bildirdi ki, vətəndaş məmnunluğunun təmin edilməsi DİN rəhbərliyinin qarşıya qoyduğu başlıca tələbdir və bu məqsədlə N.Əhmədovanın qeyd etdiyi əraziyə baxış keçirilib, həlli istiqamətində mühüm addımlar atılıb. Bu kimi müraciətlərin həm də vətəndaş-polis münasibətlərinin inkişafına töhfə verdiyini deyən şöbə rəisi istənilən müraciətə anında reaksiya verildiyini səlahiyyətləri daxilində olanların dərhal, operativ şəkildə əməkdaşlar tərəfindən icra olunduğunu, səlahiyyətlərindən kənar olan məsələlərin həlli üçün isə vətəndaşların aidiyyəti üzrə qurumlara yönləndirilməsində yaxından köməklik göstərildiyini qeyd etdi. O, əməkdaşlar tərəfindən təhkim olunmuş inzibati ərazidə qəzaların qarşısının alınması, yarana biləcək süni sıxlığın aradan qaldırılması, piyadaların təhlükəsizliyi istiqamətində, eləcə də kobud qayda pozuntularına yol verən sürücülər barəsində bütün zəruri tədbirlərin həyata keçirildiyini də vurğuladı.

Yol-hərəkəti qaydaları, eyni zamanda təhlükəsizliyi haqqında mütəmadi olaraq həm sakinlərlə, həm də orta məktəb şagirdlərilə keçirilən maarifləndirmə tədbirlərindən danışan DYPŞ-nin inzibati təcrübə üzrə baş inspektoru, polis mayoru Elmar Əbilov görüşlərdə şagirdlərə əsasən yol hərəkəti təhlükəsizliyi, həmçinin nizamlanan və nizamlanmayan piyada keçidlərindən istifadə qaydaları, yol nişanları, işıqforlar barədə məlumatlar verildiyini diqqətə çatdırdı.

*T.Əlizadə*

# NARKOMANİYA BƏŞƏRİYYƏTİN DÜŞMƏNİDİR

**Səbail Rayon Polis İdarəsinin** təşkilatçılığı ilə "Narkotik əsrin bəlasıdır, zərərli vərdişlərə yox deyək" mövzusunda 132-134 nömrəli tam orta məktəbdə maarifləndirici tədbir keçirilib.





Tədbirdə Rayon Polis İdarəsinin rəhbərliyi və əməkdaşları, Rayon İcra Hakimiyyətinin, digər dövlət orqanlarının nümayəndələri, orta məktəbin pedaqoji heyəti və yuxarı sinif şagirdləri iştirak ediblər.

**Səbail Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Hikmət Qasımov** çıxışında cəmiyyətin ciddi bəlasına çevrilən, mənəvi və əxlaqi dəyərlərə böyük zərbə vuran narkomanlığın bütün dünya üzrə ən ağrılı problemlərdən olduğunu bildirib, onun yaratdığı təhlükələr və məhvedici təsirləri barədə geniş məlumat verib. Narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində ölkəmizdə aparılan qətiyyətli mübarizə tədbirlərinə diqqət çəkən idarə rəisi Vətən müharibəsində zəfərin məhz sağlam gəncliyin sayəsində əldə edildiyini, polisin barışmaz mübarizəsinin də sağlam gələcəyin təminatına yönəldiyini vurğulayıb.

Tədbirdə çıxış edənlər ümumbəşəri bəlaya qarşı mübarizədə cəmiyyətin hər bir üzvünün fəallıq göstərməsinin əhəmiyyətini qeyd edərək, şagirdlərə cinayətə meyilli şəxslərin təsiri altına düşmədən doğru yolu seçmələri, yüksək savada sahib olmaqla xalqımız və dövlətimiz üçün faydalı vətəndaş kimi yetişmələrini tövsiyə ediblər.

Daha sonra mövzu ilə bağlı suallar cavablandırılıb.

**Narkomaniya ilə mübarizəyə həsr olunmuş növbəti tədbir Gənclər və İdman Nazirliyi, Suraxanı Rayon İcra Hakimiyyəti, Suraxanı Gənclər Evi və El -1 idman liqasının, Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq Liqasının sədri Elçin Çobanzadənin təşkilatçılığı, AZTV (İdman TV) informasiya dəstəyi ilə Suraxanı Gənclər Evində keçirilib.** Tədbirdə **DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov, Suraxanı Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik leytenantı Surxay Vəliyev,** Rayon İcra Hakimiyyətinin nümayəndələri Anar Qüdrətov, Mətanət Zeynalova, şəhid ailələri, qazilər və digər qonaqlar iştirak edib.

Şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə çıxış edənlər Azərbaycanda narkomaniyaya qarşı aparılan mübarizənin müxtəlif istiqamətlərindən, mübarizə prosesində məktəblərin xüsusi rolundan söz açaraq qeyd ediblər ki, narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Xüsusi vurğulanıb ki, cəmiyyətin ciddi bəlasına, xalqların təhlükə mənbəyinə çevrilmiş narkomaniya, sərhəd tanımayan, qlobal xarakter daşıyan beynəlxalq problemdir və bu problemin həllinə xidmət edən mühüm addımlardan biri yeniyetmə və gənclərin polisin mübarizəsinə dəstək verməsidir.





**Balakən rayonunun Qabaqçöl qəsəbə tam orta məktəbində də şagirdlərlə görüş keçirilib.** Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə keçirilən görüşdə narkotik vasitələrin, psixotrop maddələrin və digər zərərli vərdişlərin fəsadlarından, gənc nəslin sağlamlığı üçün yaratdığı təhlükədən danışılıb.

Tədbirdə çıxış edən **RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Elxan Zamanov** ölkəmizdə narkomaniyanın qarşısının alınması istiqamətində görülən işlərdən söz açıb, bu öldürücü bəlanın səbəb olduğu faciələr barədə ətraflı məlumat verib. Həmçinin, yeniyetmə və gənclərin zərərli vərdişlərdən çəkindirilməsinin, asudə vaxtlarının səmərəli təşkilinin vacibliyi qeyd edilib.

*"Polis"*

# Boksçumuz uğur qazandı



**Ötən ay DİN Komendant Xidmətinin əməkdaşı, polis serjantı Eldar Quliyev üçün uğurlu olub.** Belə ki, o, Boks mərkəzində böyüklər arasında keçirilən boks üzrə Azərbaycan çempionatında qızıl medal qazanıb. 86 kiloqram çəki dərəcəsində 4 döyüşdə gücünü sınayan əməkdaşımız, rinqdə rəqiblərinə əsl idman "dərsi" keçib.

O, redaksiyamızın qonağı olarkən bildirdi ki, məşqlərin ağırlığına baxmayaraq, vətənpərvərlik hissi həmişə ön qələbədən-qələbəyə aparıb. Təsadüfi deyil ki, hələ kiçik yaşlarından müxtəlif yarışların, dünya və Avropa çempionatlarının iştirakçısı və qalibi olub, bayrağımızı beynəlxalq arenalarda dalğalandırıb.



DİN İdman Cəmiyyətinin yetirməsi noyabrın 7-də Polşada baş tutacaq beynəlxalq boks turnirinə daha inamla hazırlaşır.

E.Quliyev DİN rəhbərliyinin idmançılara olan diqqət və qayğısının, eləcə də yaradılan şəraitin daha əzmlə məşq etməyə, yarışlarda birincilik qazanmağa ruhlandırdığını deyir.

Qeyd edək ki, Eldar Quliyevi bu yarışa əməkdar məşqçi Vüqar Ələkbərov hazırlayıb.

*Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı*

# Avropada ədaləti qoruyub...

Bu günlərdə Albaniyanın Dürres şəhərində gənclər arasında ağır atletika üzrə Avropa birinciliyi keçirilib.



Yarışda 37 ölkədən 416 atlet (194 qadın və 222 kişi) iştirak edib. Medallar uğrunda mübarizəyə Azərbaycan yığma komandasının üzvləri də qoşulub.

**Beynəlxalq dərəcəli hakim, ağırlıqqaldırma üzrə dörd dəfə SSRİ və Avropa çempionu, Sabunçu RPİ İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Asif Məlikov** da keçirilən turnirdə hakim qismində ədaləti qoruyub.

Komandamız 3 qızıl, 4 gümüş və 2 bürünc medalla komandalar arasında 4-cü yerdə kifayətlənib.

*Ruslan Vəliyev, polis baş leytenantı*

# Xidmətləri rəğbət doğurur

Onların yollarda təhlükəsizliyi təmin edərkən, sürücülərlə və piyadalarla səmimi rəftarı, apardıqları profilaktiki söhbətlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.



Belə ki, "Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq Liqası"nın sədri Elçin Çobanzadənin DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda **Suraxanı RPİ DYPŞ-nin əməkdaşları, polis baş serjantı Samir Mirzəyev və polis serjantı Akif Muradovun** xidməti vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, sürücülərə diqqət və yüksək mədəni davranış nümayiş etdirmələrini qeyd etməsi rayon ərazisində ümumi xidmətin təşkilinin qənaətbəxş olduğundan xəbər verir.

Mövzu ilə bağlı "Polis"in suallarını cavablandıran **Suraxanı RPİ DYPŞ-nin rəisi, polis polkovnik-leytenantı Mais Məmmədov** əməkdaşların öz vəzifələrini layiqincə icra etməyə səy göstərmələrini, həm rəhbərliyin, həm də hərəkət iştirakçılarının etimadını doğrultmağa çalışdıqlarını diqqətə çatdırdı. Bildirdi ki, vətəndaşların yol polisindən razılıq hissi ilə onların xidmətinə dəyər verməsi müsbət göstəricidir. Və bu onlarda arxayınlıq yaratmır, əksinə məsuliyyətlərini birə-beş artırır.

Xidmətləri rəğbət doğuran inspektorlar barədə də danışan şöbə rəisi hər iki əməkdaşın vəzifə səlahiyyətlərinin öhdəsindən layiqincə gəldiyini də bildirdi.

*R.Vəliyev*

## STATİSTİKA

## Kriminal icmal

- Oktyabrın 27-dən noyabrın 2-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 338, əvvəlki dövrlərdən bağlı qalan 71 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 503, o cümlədən borclu şəxs qismində axtarışda olan 387 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 15 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 18 nəfər ölüb, 20 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 169, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 21 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik